**Nuran Miraqil oğlu Hüseynli**

**UOT: 338.48: 379.851; JEL: R58; Z30; Z31; Z32; Z38.**

# Lənkəran iqtisadi rayonunda turizm-rekreasiya kompleksinin sosial-iqtisadi mahiyyəti və konsolidasiyası

***Xülasə***

*Tədqiqatın məqsədi – Turizmə sosial–iqtisadi mahiyyəti ilə yanaşarkən burada bölgənin milli mədəni inkişafı, inteqrasiyanın dinamikası, qloballaşma meyillərinin və innovativ sistemlərin altsistemlərin tətbiqi, iqtisadi mənafeyin güclənməsi prizmasından baxmaq məqsədəmüvafiqdir. Bu məqsədlə turizm –rekreasiya kompleksinin Lənkəran iqtisadi rayonunda inkişaf etdirilməsi və onu dövlət tərəfindən qoyulan baza əsasında inkişaf etdirmək perspektivi və mümkün problemlərinin mahiyyəti araşdırılmış və açıqlanmışdır. Sosial iqtisadi məsələlər və onların turizm ilə bağlılığına dair Lənkəran iqtisadi rayonu kontekstində vacib məsələlərə toxunulmuşdur və mühüm məqamlar verilmişdir. Lənkəran iqtisadi rayonunun turizm –rekreasiya potensialının bölgənin sosial iqtisadi həyatına sistemli şəkildə baxılması əsasında ümumiləşdirilmə aparılmışdır. Turizmin sosial- iqtisadi həyata təsirlərinin vacibliyi əsaslandırılmışdır. Tədqiqatın metodologiyası – tədqiq olunan problem üzrə müasir dövrdə yaranmış real vəziyyətdən çıxış edərək müxtəlif təhlil üsullarından (təhlil,sintez və s.), metodlardan, eyni zamanda bu problemlərə bağlı bir sıra alim və tədqiqatçıların yanaşmalarından ibarətdir. Tədqiqatın tətbiqi əhəmiyyəti - əldə olunmuş nəticələrdən və elmi-iqtisadi müddəalardan, verilmiş təkliflərdən ölkəmizin turizm sənayesində və onun müəssisələrində praktiki işlərin görülməsi və konseptual yanaşmaların formalaşdırılması və optimallaşdırılması proseslərində istifadə edilə bilər. Tədqiqatın nəticələri – Lənkəran iqtisadi regionunun potensialından istifadə edərək, regionda turizm-rekreasiya komplekslərinin regionun sosial-iqtisadi həyatına verə biləcəyi səmərədən ibarətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatda baxılan problemlərin mahiyyəti hissəsi əvvəllər araşdırılmış və burada ona yeni baxış formalaşdırılmışdır. Belə ki, postpandemiya dövründə yeni iqtisadi mexanizmlərin işlənməsi və tətbiq üçün əsasların hazırlanması vacibdir. Lənkəran iqtisadi regionunda turizm –rekreasiya kompleksinin, maddi-texniki bazasının yenilənməsi, rəqəmsal texnologiyalardan istifadənin intensivləşdirilməsi məsələləri verilmişdir. Postpandemiya dövründə turizm müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi və daha səmərəli təşkili üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.*

***Açar sözləri:*** *turizm- rekreasiya kompleksi, iqtisadi artım, Lənkəran iqtisadi rayonu, iqtisadi- sosial amil, tədiyə balansı, məşğulluq, turist, fiskal siyasət, kənd təsərüfatı.*

## Giriş

Açıq yaşıl ərazilər - bir çox insanın günlük istifadə elədiyi, həyat keyfiyyətimiz, fiziki və psixoloji xoşbəxtliyimiz üzərində təsiri olan, demoqrafik xüsusiyyətləri və sosial-iqtisadi statusundan aslı olmayaraq, hər kəsin istifadə edə biləcəyi və pulsuz olan bir xalq xidmətidir [1]. Turizmin - rekreasiya kompleksinin inkişafı müasir dünya iqtisadiyyatı şəraitində özünün əhəmiyyətliliyi və sosial-iqtisadi nəticələrinə görə mütərəqqi sahə kimi qiymətləndirilir. Turizm sferası iqtisadi və sosial potensialı yüksək olan ölkələrdə struktur siyasətinin və perspektiv bazar iqtisadiyyatının prioritet istiqamətlərindən biridir. Turizmin mövcud vəziyyəti onun ümumi daxili məhsulun artımı, tədiyə balansına nüsbət təsirləri və sosial problemlərin həllində rolu ilə qiymətləndirilir. Qeyd edək ki, turizmin rentabelliyi isə

©Nuran Miraqil oğlu Hüseynli Azərbaycan Dövlət Aqrar Universiteti, dissertant. E-mail: nurangaga@yahoo.com
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

onun iqtisadi artım və sosial problemlərin həllində rolu ilə düz mütənasibdir. Turizmin inkişafının nəticələrinin proqnozlaşdırılması nöqteyi-nəzərindən qiymətləndirilməsi, təşkilatı, inzibati və planlaşma obyekti olaraq elmi cəhətdən kifayət qədər aktualdır. Müasir dövrdə turizmin sosial-iqtisadi nəticələrini sürətləndirmək məqsədilə onun amillərinin tədqiqi və təşkili metodologiyası nəzəri və praktiki əhəmiyyət kəsb edir. Turizmin inkişafının metodlarının əsasını postpandemiya dövründə turizm haqqında qanun, turizmi tənzimləyən orqanların qəbul etdikləri sənədlər, sosial iqtisadi normativlər, turist firmaları və fəaliyyətinin əsas xüsusiyyətləri təşkil edir. Turizmin sosial-iqtisadi nəticələrinə dair bir sıra araşdırmalar aparılsa da, kompleks fəaliyyət növü olaraq onun sistemli təsviri və tədqiqinə kifayət qədər işlər həsr olunmamışdır. Ona görə də məqalə öz problemləri və araşdırma metodlarına görə aktualdır və yenilikləri özündə ehtiva edir, əsasən müəllif yanaşmalarına, mülahizələrinə daha çox yer verilmişdir.

**Lənkəran iqtisadi rayonunda sosial-iqtisadi inkişaf proseslərinin qiymətləndirilməsi**

Məlumdur ki, turizm xidmət fəaliyyət sahəsi olub, məqsədi xidmət göstərməklə gəlir əldə etmək sosial-iqtisadi inkişafa təsir etməklə bir sıra ərazi, sahə və regional inkişaf problemlərini həll etməkdə faydalı və səmərəli bir xidmət sahəsidir. Turizm-rekreasiya kompleksinin inkişaf potensialı-regionlar üçün mənfəətlilik, rentabellik və səmərəliliyə yönəldilir, yeni iş yerləri açılır və regionların sosial-iqtisadi inkişafı üçün münbit şərait yaradılır. Turizm-rekreasiya kompleksinin mahiyyəti onun kombinə edilmişliyi, istehsal strukturu, təşkilati quruluşu və menecment xüsusiyyətləri ilə formalaşır. Turizm-rekreasiya kompleksinin konseptual əsasları resurs potensialı, oroqrafiklik və onun idarəediçiliyi turizm məhsulu əsasən fəaliyyət proseslərində proqnozlaşdırılmış gəlirlərin formalaşması məntiqinə əsaslanır. Turizm-rekreasiya kompleksinin inkişaf problemləri sosial, iqtisadi və təcrübə ilə bağlı olan bir sıra problemlərlə əlaqəlidir. Onun yerləşməsi və inkişafı bir neçə aspektdən yanaşılmaqla, regionun potensialına uyğun olaraq formalaşır. İqtisadi sistem və infrastrukturun əlçatanlığı turizm sisteminin formalaşmasının adi və sosial əsasıdır. Turistlərin xarakteristikası, spesifikası və seqmentləşməsi hər bir ölkədə turizmin təşkilinin əsas amillərindən hesab olunur. Turizm-rekreasiya kompleksləri müəssisələri turistlərin tələbinə uyğun olaraq təklifini təqdim edirlər, digər tərəfdən turizm tələbi və təklifi bir yerdə turizm bazarını formalaşdırır. Turizm bazarı turizm məhsulunun reallaşması yolları və uyğun qiymətlərlə ölçülür, eyni zamanda turizmin sosial-iqtisadi mənası çoxşaxəli və kompleks göstəricilərlə ifadə olunur. Onun əsas məqsədi kommersiya gəlirləri gətirmək, yerli resurslardan istifadə etmək, əhalinin rifahı üçün infrastrukturu genişləndirməkdən ibarətdir. Turizm fəaliyyət dairəsi olmaqla sahibkarlığa şərait yaradır, bunlarla bərabər turizm biznesin və korporativ idarəetmənin obyekti olaraq çıxış edir. Bu halda, turizmin sosial mənası iş yerlərinin açılması, ev təsərrüfatının inkişafı və yerləşdikləri ərazilərin sosial-iqtisadi inkişafını təşkil etmək vəzifəsi təşkil edir. Qeyd olunan proseslər və fəaliyyət tədbirləri iqtisadi və sosial inkişafın problemləri, həmin resurslardan istifadənin səmərəli təşkili və məşğulluğun artması məqsədlərinə uyğun olaraq təşkil olunur. Turizm fəaliyəti xidmət sferası olmaqla turistlərin ehtiyacını ödəmək üçün fəaliyyət göstərir və turizm fəaliyyətinin təşkilinin resurs potensialı, regionun resurs potensialı, əhalinin rifahının yüksəldilməsi problemlərinin həlli üçün aparıcı amillər kimi qiymətləndirilir.

Müasir dövrdə, sosial infrastruktur sahələri əsas etibarı ilə nəqliyyat, ictimai iaşə, mənzil, otel və məişət xidmətləri sahələri ilə daha çox bağlıdır. Turizmin infrastruktur sahələri şəhərsalma və regionlarda kompleks ərazi inkişafına təkan verir və turizmin sosial mahiyyəti onun sosial predmeti olaraq öyrənmənin əsasını yaradır, eyni zamanda iqtisadi istiqamətdən ayrı olaraq formalaşmır. Turizm-rekreasiya kompleksinin inkişafında sosial



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

amillər- demoqrafik, milli mədəni inkişaf, turizmə bağlı xidmət və qeyri xidmət sahələrinin inkişafı və ixtisaslaşma səviyyəsi ilə ölçülür.

Turizmin sahəvi quruluşu, onun regional yerləşmə imkanları, sosial infrastrukturun yerləşməsinin konseptual əsası kimi də baxıla bilər. Eyni zamanda, turizmin infrastrukturu birbaşa sosial xarakterli infrastruktur kimi səciyyələndirilir ki, orada işlərin aparılması, eləcə də həmin turizm-rekreasiya kompleksinin, turizm obyektinin turistlərin tələblərinə cavab vermək üçün gördüyü tədbirlər ümumiyyətlə yüksək səviyyəli xidmət göstərilməsi üçün lazım olan məhsullar və onların becərilməsi yetişdirilməsi, həmçinin orada lazım olan fiziki qüvvə bütöv bir destinasiyanın inkişafını, ailələrin, kənd təsərrüfatı müəssisələrinin maddi-mənəvi amillərini özlərində əks etdirməklə, sosial-iqtisadi həyata olan müsbət təsirləri ilə fərqlənir və turzm kompleksinin yerləşdiyi bölgəninin inkişafının lokomotivi kimi çıxış edir. Təhsil, səhiyyə, nəqliyyat, rəqəmsal xidmətlər, mənzil-kommunal təsərrüfatlarının inkişafı, otelçilik, digər yerləşmə məkanları və fərdi evlər, ev təsərrüfatına münasibət sosial vəzifələri ifadə edir. Regionlarda yaşayış üçün şəraitin artması birbaşa rifah halının, regionda orta əmək haqqının göstəricisi kimi baxıla bilər və bu halda, xeyli insan kənd, qəsəbə və rayon yerlərində yaşamağa daha çox meyl edəcəkdir. Eyni zamanda, bununla həm də kəndlinin iqtisadi problemi həll olunur, gəlir mənbələri əldə etmiş olur, sosial və iqtisadi fəallığı artır.

Hazırda Lənkəran iqtisadi rayonunda turizmin inkişafı üçün çox geniş imkanlar vardır və turizmin sosial-iqtisadi inkişafı əhalinin həyat səviyyəsinin yüksəldilməsi, rifah halının yaxşılaşdırılmasına səbəb olan başlıca amillərdən hesab edilir. Lənkəran iqtisadi rayonunda turist bazaları daha geniş olaraq yaradılarsa, bu, ilk növbədə minlərlə yeni iş yerlərinin açılması, kənd təsərrüfatı mallarının istehsalının artırılması və çeşidinin genişləndirilməsi, bu malların sərfəli olaraq satışının təşkili, bölgə əhalisinin sosial rifah halının yaxşılaşması istiqamətlərində daha yüksək nəticələr əldə etmək mümkündür. Ümumilikdə, Azərbaycanda turizm sahəsində mövcud olan geniş imkanlar və dövlətin təkmilləşdirilmiş turizm siyasəti aparması ölkəmizin bir sıra beynəlxalq təşkilatlarla turizmin inkişafı istiqamətində əməkdaşlıq etməsinə şərait yaradır. Bu beynəlxalq qurumlar arasında Dünya Turizm Təşkilatının, İslam Konfransı Təşkilatının, Qoşulmama Hərəkatının, GUAM-ın, Müstəqil Dövlətlər Birliyinin və digər təşkilatların adlarını çəkmək olar. Eyni zamanda, Azərbaycan turizm sahəsində zəngin təcrübəsi olan ənənəvi turizm ölkələri və turizmi inkişaf etdirməkdə məqsədli inkişaf strategiyaları reallaşdıran bir sıra ölkələrlə, o cümlədən ilk növbədə qardaş Türkiyə, həmçinin Rusya, Hindistan, Çin, Çernoqoriya, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Rumıniya, Belarus, Yunanıstan, Moldova, Qətər və digər ölkələrlə hökumətlərarası sazişlər imzalamışdır. Pandemiya ilə əlaqədar olaraq bu işlər ləngisə də artıq bu ildən yavaş-yavaş digər dövlətlərlə də belə sazişlərin bağlanmasına dair müzakirələr aparılır.

Qeyd edək ki, təbii müalicə ehtiyatlarına görə Azərbaycanda kurortların balneoloji, iqlim, müalicəvi palçıq kurortları və Naftalan neftəsaslı kurortu kimi növləri mövcuddur. Balneoloji kurortlara, əsasən, təbii mineral sulardan istifadə olunan kurortlar aiddir və Azərbaycanın ərazisində müalicəvi xüsusiyyətlərinə görə dünyada qəbul olunan səkkiz qrup mineral suyun hər biri mövcuddur. İqlim kurortları müalicəvi iqlimə malikdir və iqlim kurortları üçün səciyyəvi olan müalicəvi amillər (dəniz suyu, günəş vannaları, isti qum vannaları, dağ iqlimi və s.) bir çox xəstəliklərin profilaktikası və müalicəsi baxımından əhəmiyyətli hesab olunur [2]. Turizm kompleksi öz xüsusi sosial-iqtisadi mahiyyətini, inkişaf prosesində rolunu, həmçinin təşkilinin bazar modelinin spesifik xüsusiyyətlərini formalaşdırır. Digər tərəfdən, turizm kompleks və sistemli yanaşma metodologiyası baxımından bir sıra amillərin və mexanizmlərin ərazi, coğrafi və siyasi motivini formalaşdırır, ona təşkilati-iqtisadi idarəetmə sistemi və çevik idarəetmə obyekti kimi



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

baxılmasını şərtləndirir [3]. Buradan belə bir nəticə hasil olur ki, Lənkəran iqtisadi rayonu ölkəmizdə kurortların verildiyi dörd təsnifatın ikisinə tam uyğundur. Fikrimcə isə, kurortların ümumiyyətlə turizm-rekreasiya kompleksi və onun ərazisində müəyyən hissəni, məhz sağlamlıq nöqteyi-nəzərdən var olan hissələri təsnifləşdirərkən, bir az fərqli prizmadan yanaşmaq lazımdır. Burada tibb və qeyri tibb işçiləri, onların köməkçiləri, tərcüməçilər ümumi bir tərzdə nəzərə alınmalı və əmək qabiliyyətinin bərpası təkcə tibb işçilərinin deyil, bütövlükdə turizm-rekreasiya kompleksinin bütün heyətinin üzərinə düşməkdədir.

Lənkəran rayonunda çoxyaşlı Azat, Qara qoz, At şabalıdı, Ağcaqayın, Şərq çinarı, Xəzəl lələyi ağacları, 8 hektarlıq Şümşad meşəsi, Lerik rayonda Azat ağacları, 3 hektarlıq Şümşad və 5 hektarlıq Fıstıq meşələri, Astara rayonda 24 hektarlıq çoxyaşlı Şümşad meşələri, Yardımlı rayonda Şərq çinarları, Azat ağacları, Masallı rayonda Azat, Palıd və Şümşad ağacları Təbiət Abidələri müvafiq qaydada mühafizə olunur və onlara aqrotexniki qaydada qulluq göstərilir. Lənkəran rayonunda XVII-XVIII əsrin tarixi abidəsi olan Babagil türbəsinin həyətində təbiət abidəsi-çoxyaşlı Azat, Şümşad, Palıd cinsli qədim ağaclar, qədim tarixə malik Məscid kompleksi, Qızlar qalası, türbə mühafizə olunur, tullantılarla çirklənmə hallarının qarşısı alınır, ərazilərdə mövcud yaşıllıqlara aqrotexniki qaydada qulluq göstərilir. Yardımlı rayonda b.e.ə. VI əsrdə inşa edilmiş Nekropol, X əsrdə inşa edilmiş Xınalıtəpə yaşayış yeri və küp qəbirləri, Tunc və daş dövrlərə aid olan daş qutu nekropolları, Gavurqəbir nekropolu və Alar mağarası, Dəvə Karvanı daş kompleksi, XII-XIII əsrə aid Göyəmli və Qalacıq yaşayış yeri, rayonun Porsova kəndinin ərazisində b.e.ə. IV-II əsrlərə aid Əligüneyli küp qəbirləri, I-II əsrə aid Gilavar küp və torpaq qəbirləri nekropolu, IX-XIII əsrə aid Ovçutəpə yaşayış yeri tarix və mədəniyyət abidələri mühafizə olunur, tullantılarla çirklənmə hallarının qarşısı alınır, ərazilərdə mövcud yaşıllıqlara aqrotexniki qaydada qulluq göstərilir. Astara rayonun qədim tarixi mədəni dövrünü özündə əks etdirən tarix - diyarşünaslıq muzeyi, XII əsrə aid türbə, XIX əsrə aid Kərbəlayi Həmid Abdulla hamamı, qədim məscidlər və türbələr, Telman, Pensər, Təngərüd, Şüvi kəndlərində Tunc və Dəmir dövrlərinə aid kurqanlar kimi turizm əhəmiyyətli tarix və mədəniyyət abidələrinin əraziləri mühafizə olunur, tullantılarla çirklənmə hallarının qarşısı alınır, ərazilərdə mövcud yaşıllıqlara aqrotexniki qaydada qulluq göstərilir. Sözügedən rayonlarda turizm əhəmiyyətli müasir istirahət komplekslərində formalaşan tullantı suları komplekslərinin ərazilərində qazılmış quyulara (şambo) yığılır və sonradan xüsusiləşdirilmiş nəqliyyat vasitəsilə daşınır. Əmələ gələn bərk məişət tullantıları isə poliqonlara daşınaraq zərərsizləşdirilir [4]. “Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı”nın icrası ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən görülən tədbirlərdən də aydın olur ki bütün dövlət proqramları dövlətin tənzimlənmə cəhtlərində həm region, həm onun insanları eləcədə turistlər üçün çox faydalı olur.Burada ən diqqət çəkən məqamın regionun sosial iqtisadi həyatında, orada yaşayan insanların göz zövqləri belə nəzərə alınmalı və bütün bu görülən tədbirlər keçmişin qorunması və regionun sanitar gigiyena təmizlik nöqteyi nəzərdən belə inkişafın göstəricisi olmaqdadır.

**Lənkəran turizm–rekreasiya kompleksinin iqtisadi potensialı və inkişaf imkanları**

Regionların iqtisadiyyatı ölkə iqtisadiyyatının tərkib hissəsi kimi nəzərdən keçirilir və ölkə iqtisadiyyatında baş verən yeniliklər, dinamika, inkişaf, qanunauyğunluqlar və müxtəlif hadisələr regionların iqtisadi imkanlarına təsir edir. Regionlar bir-biri ilə və mərkəzlə əlaqədar vahid təsərrüfat sistemlərini yaradır. Təbii ki, bu təsərrüfat inzibatçılıq əsasında deyil, qarşılıqlı əlaqələr prinsipləri üzərində qurulur. Regionların iqtisadiyyatı mərhələli maraqlar üzərində qurulduğu halda, ölkə iqtisadiyyatı ümumi mənafelər üzərində qurulur. Ölkənin iqtisadi təhlükəsizliyi hər bir vətəndaşın, hər bir şəxsin iqtisadi maraqlarını, sosial inkişafını mərkəzləşdirilmiş fondlar vasitəsilə, resurslar vasitəsilə təmin etmək

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

strategiyası əsas götürülür. Inteqral, yəni makroiqtisadi maraqlar, resurslar, lokal, məhəlli və birgə imkanlar hesabına uyğunlaşdırılır. Turizm və rekreasiya zonaları insanların əyləncəsini, istirahətini, müalicəsini və sağlamlığını təmin edən, müvafiq turizm infrastrukturuna malik olan, xüsusi ekoloji, rekreasiya, tarixi, mədəni əhəmiyyət daşıyan təbiət və mədəniyyət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, milli və mədəni irsi qoruma, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmə, maarifçilik, elmi və digər məqsədlər üçün istifadə olunan, regionların sosial-iqtisadi inkişafına kömək edən və müvafiq idarəetmə qurumlarına malik ərazilərdir [5]. Turizmin milli iqtisadiyyatın böyük bir müstəqil sahəsinə çevrildiyi və fəaliyyətinin əhalinin xüsusi ehtiyaclarını ödəməyə yönəldiyi aydın olur. Bu ehtiyacların müxtəlifliyi təkcə turizm müəssisələri tərəfindən deyil, həm də iqtisadiyyatın inkişafına multiplikator təsir edən amillərdən biri olaraq turizmin əhəmiyyətini müəyyən edən digər sənaye müəssisələri tərəfindən qarşılanır. Məhz bu xüsusiyyətlər sayəsində turizm bir çox ada əyalətinin iqtisadiyyatının büdcə formalaşdıran bir qoludur. Əsas gəlirdən əlavə, turizm əlavə iş yerləri yaradır və investisiyaların daxil olmasını təşviq edir [6]. Burada göründüyü kimi turizm rekreasiya zonaları və onun genişprofilli olması açıq aşkar ifadə edilir. Bu tərifin 13 illik tarixə malik olması qeyd olunmalı və yeni modernizasiya olunmuş variantına ümumən ölkəmizdə turizm haqqında düşüncələrin biraz daha modernləşməsi və diversifikasiya olunmuş yeni variantların, innovativ baxışların, turizm sisteminin daxilində baş vermiş və artıq dünyada tədqiq edilməyə və hətda praktikada özünü göstərməyə başlayan tendensiyaların ölkəmizdə tətbiqinə və tədqiqinə geniş ehtiyac yarandığını anlamaq olar. Bu istiqamətdə ölkəmizdə bir neçə cəhdlər son illərdə edilir və inanırıq ki, turizm haqqında qanunun dəyişməsi ilə son illərin nailiyyətləri ölkə iqtisadiyyatının gələcəyinə öz müsbət təsirlərini göstərəcəkdir. Turizm sənayesi dünyanın ən böyük iş yerlərinin açılmasının səbəblərindən biridir. Turizmin inkişafı infrastruktura böyük investisiyaların daxil olmasını stimullaşdırır ki, bunların da çoxu həm yerli əhalinin, həm də turistlərin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlib. Hökumətlərə vergi gəlirləri şəklində əhəmiyyətli maliyyə gəlirləri təmin edir. Turizm sahəsindəki yeni iş yerlərinin və iş yerlərinin əksəriyyəti inkişaf etməkdə olan ölkələrdə yaradılır, bu da iqtisadi artım imkanlarını balanslaşdırır, həm də kəndlərin sakinlərinin sıxlıq şəhərlərə köçməsinin qarşısını alaraq onları lövbərləməyə kömək edir [7].

Lənkəran iqtisadi rayonu və onun sıxlıq dərəcəsinin çoxluğu, ixtisaslaşmasının kənd təsərüfatı yönümlü olmasının turizmə və onun sosial mahiyyətinə yaxınlığı kimi qeyd edilə bilər.Turizmin multiplikativ effektinin və onun həndəsi silsilə ilə birbaşa və dolayı olaraq cəmiyyətin maddi mənəvi və psixoloji vəziyyətini eləcədə mədəni inkişafa, tanınmaya öz töhvəsini verdiyini düşünərək buradan qloballaşma meyillərini artıracağını bildirməkdə fayda var. Lənkəran iqtisadi rayonunda turizmin sosial olaraq düşünülməsində bir başqa nüans daha şox qeyd edilən məşğulluq prosesinə insanların cəlbi olaraq bildirilsə də, burada qadınların iş prosesinə cəlbi istiqaməti haqqında çoxda danışılmır, halbuki bu proses özü də şərqdə qadınlara ilk seçkilərdə iştirak payı verilən və həmişə qadınların kişilərlə eyni hüquqa malik olduğunu deyən ölkələrdən fərqli olaraq bunu əməldə göstərən ölkəmizdə deyilməsi vacib bir faktdır. Düzdür burada daha çox qadınların qabyuyan, paltaryuyan, ümumiyyətlə houzkipinq fəaliyyətində yerləşmə məkanlarının, otel departamenti və ya şöbəsində işləsələr belə bu onların gəlirlərini və həm də maddi müstəqilliklərini artırmış olur. Daxili turizmin inkişafı ilə əlaqdəar bu iş yerləri müvəqqəti olmaqdan çıxaraq daimi iş yerlərinə çevrilsə bu gələcək perspektivdə məşğulluq məsələlərini daha fərqli prizmadan tədqiq edilmə zərurəti vəziyyətinə gətirəcəkdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Sosial məsələ olaraq regionlarda və ümumiyyətlə turizmi özlərinə əsas gəlir mənbələrindən biri kimi görən ölkələrdə savad və dünyagörüşü faktoru olduqca geniş bir məsələ kimi ortaya çıxır. Biz buraya gələn insanların milli mədəni həyat tərzləri, onlar haqqında stereotiplərin məhvi və reallıqların görünməsi və digər maraqlı dünyagörüşü və savad faktorlarının ortaya çıxdığını müşahidə etmiş oluruq. Əlbəttə, burada turizmin regiona ancaq müsbət çalarlar gətirəcəyini və həmişə sadəcə müsbət faktorlar qeyd edildiyini bildirmək istəmirik ki, bu onsuz da qeyri – mümkün olan bir prosesdir, sadəcə qeyd etmək yerinə düşər ki, müsbət aspektlər mənfi aspektlərdən daha çoxdur və qloballaşma prosesində mütləq hər iki tərəf daha çox qazanmış olur. Bu prosesdə mənfi nüansları qeyd etmək lazım gələrsə bunlara əsasən gələn turistlərin yerli əhalinin mədəni və əxlaqı dəyərlərinə çox zaman bilməyərəkdən, bəzən isə bilərəkdən hörmətsizlik etməyi qeyd edilməlidir. Turoperator və turagentlərə bu tipli mənfi halların qarşısını almaq üçün ciddi iş düşür. Digər bir mənfi hal isə bölgənin ekoloji vəziyyətinə verilən ziyanları qeyd etmək olar ki, burada qəbul edən destinasiya indiki halda Lənkəran iqtisadi rayonunu ümumən götürsək bir bölgəni konservləşdirib digər bir bölgəni turistlərə açıq qeyd etməklə regionun ekoloji vəziyyətini yüksək səviyyədə saxlamaq mümkündür. Əsas faktor konservləşən zonaların tamamilə bağlanması və müxtəlif orqanlar tərəfindən mütəmadi monitorinqinin aparılması zərurəti olacaq ki, ölkəmizdə bu işi Ekologiya və Təbii Sərvətlər Nazirliyi və onun nəzdindəki qurumların bu işi yüksək səviyyədə apara biləcək imkanları vardır. Erqonomik qaydalar zamanı sağlamlığın gözlənilməsinə idarəedənlərlə yanaşı, turistin özü də diqqət yetirməli olduğu məqamlar olmalıdır. Yəni erqonomika həyat fəaliyyətinin təhlükəsizliyini təmin edən mühitin yaradılmasını tələb edən şəraiti nəzərdə tutur. Turizm fəaliyyətinin də erqonomik əsasları olmalıdır. Bura turizm fəaliyyətinə aid olan bütün komponentlərin turistin və turizm fəaliyyətini həyata keçirənlərin ideal fəaliyyət şəraiti nəzərdə tutulur. Hazırda insanların fəal həyat tərzi sürmələri və sağlamlıqlarının bərpası üçün turizmin əhəmiyyətli olduğu vurğulanır [8].



Turizm - rekreasiya kompleksinin iqtisadi mahiyyəti deyərkən burada bir neçə nüansa fikir verilməlidir. Ödəmə qabiliyyəti, səmərəlilik və eləcə də likvidlik anlayışlarının və demək olar ki, maliyyə vəziyyəti, onun qiymətləndirilməsi, maliyyə vəziyyətinin ümumi strukturu və onun alətləri eləcə də onların dinamikası nəzərə alınır. Bu amillərdən baxarkən bir neçə məsələni ümumiləşdirib qeyd etmək yerinə düşər:

- ⇨ Tədiyyə balansının müsbət mənada yerdəyişməsi.
- ⇨ Valyuta daxilolmalarının mühüm mənbəyi kimi.
- ⇨ İqtisadi inkişafa ciddi təkan (sahələr üzrə).
- ⇨ Büdcə ödənişlərinin həcminin artması.
- ⇨ Məşğulluğun artması ilə müşayət olunan alıcılığ qabiliyyətinin artması.

Turizm və nəqliyyat sektoru arasındakı qarşılıqlı əlaqənin mahiyyəti bu sahələrin bir-birinin inkişafına təkan verməsindədir. Belə ki, turizm bölgəsinə gələn turistlərin sayının çox olması onlara xidmət edən nəqliyyat vasitələrinin də sayının və çeşidliliyinin, eləcə də bu sahənin iqtisadi çəkisinin artmasına imkan yaradır [9]. İqtisadi məsələləri sosial məsələlərdən ayırmamaq və onları cəmiyyətin inkişafı ilə əlaqələndirmək lazım olduğu reallığına hakim olaraq bir neçə iqtisadi nüansı, eləcə də onların sosial məsələlərə aidiyyatı olduğunu qəbul edərək aşağıdaki sxemdə göstərmək və onlar haqqında daha geniş bəhs etməyi lazım bilmişik (şəkil 1). Verilmiş sxemdə turizm rekreasiya kompleksinin müxtəlif istiqamətlərdən Lənkəran iqtisadi regionuna təsirləri müəyyən edilmiş və bu istiqamətlərin hər birinin ayrılıqda və bəzən isə birlikdə kombinə edilmiş çəkildə regionun inkişafına və əlbətdəki konseptual olaraq ölkə iqtisadiyyatının inkişafına öz töhvəsini verməsi prosesi

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

çoxşaxəli və eləcədə multiplikativ effektin varlığı ilə nəqliyyat , kənd təsərrüfatı ,səhiyyə, tikinti və digər sahələrdə dinamik inkişaf meyilləri artmışdır (şəkil 1). Burada milli mədəni nemətlərdən kulinariya, muzey, yasaqlıq, qoruq və sairdən həm yerli əhalinin həm də turistlərin əylənməsi istirahəti üçün istifadə eləcədə sahibkarlıq fəaliyyəti və gəlir mənbəyi kimi baxış və bununla da sosial- iqtisadi sahədə tərəqqiyə nail olmaq istiqamətində işlər artaraq davam etdirilməlidir.

**Şəkil 1.**

**Lənkəran iqtisadi rayonunda turizm rekreasiya kompleksinin sosial iqtisadi amillərinin məzmunlaşması istiqamətləri**






## Nəticə

Lənkəran iqtisadi rayonunda sosial-iqtisadi nöteyi nəzərən turizm-rekreasiya kompleksinə baxış bucağının nəticələrini belə qruplaşdırmaq olar: qeyri –neft sektorunun inkişafı və post pandemiya dövründə onun yenidən dirçəlməsi, yeni valyuta daxilolma mənbələrinin yaradılması prioritetlik təşkil etməlidir; fiskal siyasətə dəstək mənasında turizm rekreasiya kompleksi regionun əsas lokomotivi kimi çıxış edə bilər; turizm sektorunun inkişafında konspetual baxış və onun planlaşdırılması ümumən regionun və ölkənin inkişafında vacib əhəmiyyətli tədbirlər kimi baxılmalıdır; Lənkəran iqtisadi regionun potensialı əsasən balneoloji və iqlim istiqamətində eləcə də əmək qabiliyyətinin bərpası prosesi üçün həm yerli həm də daxili turistlər üçün cəzbedici əhəmiyyətə malikdir; bölgənin infrastrukturunun inkişafı sosial – mədəni həyatı eləcə də sosial- iqtisadi həyatı turizm sektoru ilə birbaşa və dolayı olaraq əlaqəlidir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1. Abbasi, A., Alalouch, C., Bramley G. Open Space Quality In Deprived Urban Areas: User Perspective and Use Pattern. Procedia - Social and Behavioral Sciences, 216, 2016. – p.194-205.
2. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 125 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
3. Abbaszadə, M.T. İqtisadi artımın təmin olunmasında turizm sahəsinin rolu. Audit № 2, Cild 24, 2019, s.70-82.
4. Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir30 Sentyabr 2010 - http://eco.gov.az/az/nazirlik/xeber?newsID=4932.
5. "Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə" az prezident 2008 20 iyun - https://president.az.
6. Turizmin mahiyyəti. Turizm sənayesinin xüsusiyyətləri. Turizmin inkişaf növləri və meylləri - https://1ppa.ru/az/6-ndfl/1-sushchnost-turizma-osobennosti-turindustrii-vidy-i-tendencii/
7. Beynəlxalq turizmin dünya iqtisadiyyatındakı rolu. Turizmin dünya iqtisadiyyatındakı rolu. Dünya turizminin inkişaf tarixi - https://1ppa.ru/az/envd/rol-mezhdunarodnogo-turizma-v-mirovoi-ekonomike-rol-turizma-v-mirovoi/
8. Gülalıyev, Ç.G. Turizm fəaliyyətinin Ekoloji-Erqonomik Əsasları. Bakı - 2017. - " QHT Nəşriyyatı", 2017, 150 s.
9. Naxçıvanda turizmin inkişafı diqqət mərkəzindədir. 16.08.2021 - https://nuhcixan.az/news/medeniyyet-turizm/51071-naxcivanda-turizmin-inkisafi-diqqet-merkezindedir.



***Нуран Мирагил оглу Гусейнли***

***Резюме***

***Социально-экономическая сущность туристско-рекреационного комплекса Ленкоранского экономического района и процесс его консолидации***

*Цель исследования - подойти к туризму с социально-экономической точки зрения, целесообразно взглянуть на национально-культурное развитие региона, динамику интеграции, применение подсистем тенденций глобализации и инновационных систем, усиление экономических интересов. С этой целью были изучены и раскрыты перспективы и суть возможных проблем развития туристско-рекреационного комплекса в Лянкяранском экономическом районе и его строительства на государственной основе. Социально-экономические вопросы и их связь с туризмом в контексте Ленкоранского экономического района затронули важные вопросы и отметили важные моменты. Обобщение сделано на основе систематического обзора социально-экономической жизни Лянкяранского экономического и рекреационного потенциала Лянкяранского экономического района. Обоснована важность влияния туризма на социально-экономическую жизнь. Методология исследования - состоит из различных моделей и методов анализа, методов, а также подходов ряда ученых и исследователей к этим проблемам, использующих реальную ситуацию современности. Значение применения исследования - полученные результаты и научно-экономические положения, предложения могут быть использованы в процессе практической работы и разработки и оптимизации концептуальных перспектив в туристической отрасли нашей страны и ее предприятий. Результаты исследования - использование потенциала Ленкоранского экономического района, перечень тех пропорций, которые туристско-рекреационные комплексы могут придать социально-экономической жизни региона. Оригинальность и научная новизна исследования - значительная часть проблем, рассматриваемых в исследовании, была изучена ранее и добавлена новая перспектива. Таким образом, в постпандемический период важно разработать и обосновать*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*новые экономические механизмы. В Лянкяранском экономическом районе обоснованы вопросы туристско-рекреационного комплекса, обновления основных фондов, интенсификации использования цифровых технологий. Были даны рекомендации и предложения по усилению экономической безопасности и более эффективной организации туристических предприятий в постпандемический период.*

***Ключевые слова:*** *туристско-рекреационный комплекс, экономический рост, Лянкяранский экономический район, экономико-социальный, платежный баланс, занятость, орографические, туристические, дестинация, фискальная политика, сельское хозяйство, эффективность.*

***Nuran Miragil Huseynli***

***Summary***

***Socio-economic essence of tourism and recreation complex in Lankaran economic region and the process of its consolidation***

*The purpose of the study - to approach tourism from the socio-economic point of view, it is expedient to look at the national cultural development of the region, the dynamics of integration, the application of subsystems of globalization trends and innovative systems, the strengthening of economic interests. For this purpose, the perspectives and essence of the possible problems of the development of the tourism-recreation complex in the Lankaran economic region and its construction on the basis set by the state were studied and disclosed. Socio-economic issues and their connection with tourism in the context of Lankaran economic region touched upon important issues and gave important points. The generalization was made on the basis of a systematic review of the socio-economic life of the Lankaran economic and recreational potential of the Lankaran economic region. The importance of the impact of tourism on socio-economic life is substantiated. The methodology of the research - consists of various models and methods of analysis, methods, as well as the approaches of a number of scientists and researchers on these problems, taking advantage of the real situation in modern times. Significance of the application of the research - the obtained results and scientific-economic provisions, proposals can be used in the process of practical work and development and optimization of conceptual perspectives in the tourism industry of our country and its enterprises. The results of the study - using the potential of the Lankaran economic region, a list of the proportions that tourism and recreation complexes can give to the socio-economic life of the region. Originality and scientific novelty of the research - a significant part of the problems considered in the research has been studied before and a new perspective has been added to it. Thus, in the post-pandemic period, it is important to develop and justify new economic mechanisms for implementation. In the Lankaran economic region, the issues of tourism-recreation complex, renewal of fixed assets, intensification of the use of digital technologies have been substantiated. Recommendations and suggestions were made to strengthen the economic security and more efficient organization of tourism enterprises in the post-pandemic period.*

***Keywords****: tourism-recreation complex, economic growth, Lankaran economic region, economic-social, balance of payments, employment, orographic, tourist, destination, fiscal policy, agriculture, efficiency.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 14.10.2021.***
***Çapa qəbul olunub: 22.10.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*